Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 24 iyun tarixli 182-VI FR nömrəli Fərmanı ilə təsdiq edilmişdir.

**Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Sənaye və Dağ-Mədən Təhlükəsizliyi İdarəsi haqqında**

# ƏSASNAMƏ

## 1. Ümumi müddəalar

1.1. Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyinin Dövlət Sənaye və Dağ-Mədən Təhlükəsizliyi İdarəsi (bundan sonra-İdarə) Naxçıvan Muxtar Respublikasının ərazisində texniki təhlükəsizlik sahəsində dövlət siyasətinin və tənzimlənməsinin hazırlanmasında iştirak edən, bu sahədə əlaqələndirməni və dövlət nəzarətini həyata keçirən icra hakimiyyəti orqanıdır.

1.2. İdarə öz fəaliyyətində Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının konstitusiyalarını və qanunlarını, Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyi haqqında Əsasnaməni, bu Əsasnaməni və Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyinin (bundan sonra-Nazirlik) əmr və göstərişlərini rəhbər tutur.

1.3. İdarə öz vəzifələrini yerinə yetirərkən Nazirliyin aparatının struktur bölmələri, digər icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları, qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. İdarə müstəqil balansa, qanunvericiliyə uyğun sərəncamında olan dövlət əmlakına, xəzinə və bank hesablarına, üzərində Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri, Nazirliyin və İdarənin adı həkk olunmuş möhürə, müvafiq ştamplara və blanklara malikdir.

1.5. İdarənin saxlanma xərcləri və fəaliyyəti Nazirliyə ayrılmış dövlət büdcəsi vəsaiti və mövcud qanunvericiliyə zidd olmayan digər mənbələr hesabına maliyyələşdirilir.

1.6. İdarə Naxçıvan şəhərində yerləşir.

## 2. İdarənin fəaliyyət istiqamətləri

2.0. İdarənin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.0.1. sənayedə və dağ-mədən işlərində texniki təhlükəsizlik üzrə vahid dövlət siyasətinin və tənzimlənməsinin hazırlanmasında iştirak edir və bu siyasətin həyata keçirilməsini təmin edir;

2.0.2. İdarənin səlahiyyətlərinə aid edilən texniki təhlükəsizlik məsələləri üzrə dövlət nəzarəti funksiyalarını həyata keçirir;

2.0.3. Nazirliyin digər struktur bölmələri, müvafiq dövlət orqanları ilə birlikdə fövqəladə halların qarşısının alınmasının təşkilində iştirak edir;

2.0.4. İdarənin fəaliyyət dairəsinə aid edilən sahələrin inkişafını təmin edir;

2.0.5. İdarə qanunvericilik ilə onun səlahiyyətlərinə aid olan digər istiqamətlərdə də fəaliyyət göstərir.

## 3. İdarənin vəzifələri

3.0. İdarə bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

3.0.1. təhlükə potensiallı obyektlərdə və dağ-mədən sahəsində müəyyən edilmiş qaydada texniki təhlükəsizlik tələblərinə riayət olunmasına dövlət nəzarətini həyata keçirmək;

3.0.2. təhlükə potensiallı obyektlərdə istehsal və istifadə olunan texniki qurğuların, avadanlıqların, maşın və mexanizmlərin müvafiq standartda, texniki reqlamentdə və digər normativ hüquqi aktda müəyyən olunmuş tələblərə uyğunluğu baxımından sertifikatlaşdırılmasını təşkil etmək və təhlükəsiz istismarı müddətinin məhdudlaşdırılması və ya uzadılması qaydalarını təyin etmək;

3.0.3. təhlükə potensiallı obyektlərdə istifadə olunan və sertifikatlaşdırılmış texniki qurğuların siyahısını təsdiq etmək;

3.0.4. təhlükə potensiallı obyektlərin tikintisi, genişləndirilməsi, yenidən qurulması, texniki cəhətdən yeniləşdirilməsi, konservasiyası və ləğv edilməsi prosesində layihə sənədlərini razılaşdırmaq;

3.0.5. texniki təhlükəsizlik sahəsində qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı təklifləri, normativ hüquqi aktların layihələrini hazırlamaq və Nazirliyə təqdim etmək;

3.0.6. istismar olunan təhlükə potensiallı obyektlər üçün təhlükəsizlik tələblərini müəyyən etmək;

3.0.7. partlayıcı və pirotexnik materialların itirilməsi və dağıdılmasının şəraiti və səbəblərinin texniki araşdırılmasında iştirak etmək;

3.0.8. təhlükə potensiallı obyektlərdə qanunvericiliklə müəyyən edilmiş qaydada keçirilmiş texniki təhlükəsizlik ekspertizasının nəticəsi barədə rəyi təsdiq etmək;

3.0.9. təhlükə potensiallı obyektlərin istismarı üzrə texniki təhlükəsizliyin vəziyyəti barədə hüquqi və fiziki şəxslərdən bəyannamələri qəbul etmək;

3.0.10. təhlükə potensiallı obyektlərin dövlət reyestrinin aparılmasını həyata keçirmək və onların ixtisaslaşdırılmış təşkilatlar tərəfindən tərtib edilmiş tikinti-quraşdırma, əsaslı təmir və istismar layihələrinə razılıq vermək;

3.0.11. təhlükə mənbəyi olan istehsalat obyektlərində istifadə olunan texniki qurğuların, avadanlıqların, maşın və mexanizmlərin təhlükəsizlik norma və qaydalarının tələblərinə uyğun olmasına nəzarət etmək;

3.0.12. istismar zamanı texniki qurğuların, avadanlıqların, maşın və mexanizmlərin diaqnostikasını və texniki baxışını həyata keçirmək;

3.0.13. müvafiq dövlət orqanları ilə birlikdə texniki təhlükəsizlik məsələləri üzrə dövlət standartlarını, tikinti norma və qaydalarını, əməyin mühafizəsi qaydalarını, sərəncam, təlimat, metodiki və digər sənədlərin layihələrinin hazırlanmasında iştirak etmək;

3.0.14. qanunvericiliklə müəyyən edilmiş qaydada hərbiləşdirilmiş dağ-xilasedici hissələr, fontana qarşı və qəzaların nəticələrinin aradan qaldırılması məqsədilə qəza-xilasedici bölmələr tərəfindən müəssisə və idarələrdə aparılan işlərin vəziyyətinə və hazırlığına, bu hissələr və bölmələr tərəfindən aparılan profilaktik işlərə nəzarət etmək;

3.0.15. energetika obyektlərinin, metallurgiya və təzyiq altında işləyən avadanlıqların, buxar qazanlarının və qabların, buxar və isti su kəmərlərinin, yükqaldıran qurğuların və liftlərin, eskalatorların, funikulyorların, sərnişin və yük asma kanat yollarının, mexanikləşdirilmiş attraksionların qeydiyyatını aparmaq və onların təhlükəsiz istismarına qanunvericiliklə müəyyən edilmiş qaydada nəzarət etmək;

3.0.16. ixtisaslaşdırılmış müəssisələr tərəfindən yeraltı qaz kəmərlərinin və qaz qurğularının tikintisi ilə əlaqədar olan işlərə texniki təhlükəsizlik baxımından razılıq vermək;

3.0.17. qaz nəzarəti obyektlərinin tikintisi və quraşdırılması üzrə işə başlamazdan əvvəl texniki nəzarət üçün qeydiyyata almaq;

3.0.18. partlayıcı materialların saxlanma anbarlarının texniki təhlükəsizlik baxımından istismarına və partlayış işlərinin aparılmasına razılıq vermək;

3.0.19. öz fəaliyyət istiqamətlərinə uyğun olaraq təbii resursların istifadəsinin, ətraf mühitə atılan zərərli maddələrin, məişət və istehsalat tullantılarının təkrar emalı və

basdırılması ərazilərinin yerləşdirilməsinin limitlərinin və kvotalarının müəyyən edilməsinə rəy vermək, bu işin aparılması üçün öz nümayəndəsini təyin etmək;

3.0.20. hidrotexniki qurğuların təhlükəsizliyinə dövlət nəzarətini həyata keçirmək;

3.0.21. hidrotexniki qurğuların təhlükəsizlik bəyannaməsinin ekspertizasını keçirmək və təsdiq etmək;

3.0.22. hidrotexniki qurğuların dövlət reyestrinin aparılmasında iştirak etmək;

3.0.23. hidrotexniki qurğuların mühafizə zonalarının ölçülərinin, sərhədlərinin və istifadə rejiminin müəyyən edilməsində iştirak etmək;

3.0.24. hidrotexniki qurğuların yerləşdirilməsində, habelə istismar qaydalarının razılaşdırılmasında, tikintinin keyfiyyətinə nəzarət və tikintisi qurtarmış obyektlərin istismara qəbulunda, istismarında, konservasiyasında və ləğv edilməsində iştirak etmək;

3.0.25. təhlükəli yüklərin avtomobil, dəmir yolu, hava nəqliyyatı vasitələri ilə daşınma marşrutlarının müəyyən edilməsinə razılıq vermək;

3.0.26. yerin təkindən istifadə ilə əlaqədar işlərin təhlükəsiz aparılmasına dövlət nəzarətini həyata keçirmək və mübahisələrin həllində texniki araşdırmalar aparmaq və rəy vermək;

3.0.27. faydalı qazıntı yataqlarının istismarı ilə əlaqədar yerin təkindən istifadə ilə bağlı işlərin təhlükəsiz aparılmasına dövlət nəzarətini həyata keçirmək, faydalı qazıntıların hasilatı və bununla əlaqədar olan digər işlərin texniki layihəsinin müəyyən olunmuş qaydada dövlət ekspertizasını aparmaq;

3.0.28. dağ-mədən sahələrinin ayrılmasına razılıq vermək;

3.0.29. faydalı qazıntı yataqlarının istismarı layihələrini və dağ-mədən işlərinin inkişafı planlarını, yerin təkinin mühafizəsi və texniki təhlükəsizlik tələblərinə uyğun müəyyən olunmuş qaydada razılaşdırmaq;

3.0.30. yer təkinin istifadəsi ilə əlaqədar işlərin təhlükəsiz görülməsi üçün müəyyən edilmiş standartların, normativlərin və qaydaların tələblərinin yerinə yetirilməsinə rəy vermək;

3.0.31. faydalı qazıntılar yerləşən sahələrdə yaşayış məntəqələrinin, sənaye komplekslərinin və digər təsərrüfat obyektlərinin layihələndirilməsinə və tikintisinə dair işlərin aparılmasına, eləcə də yeraltı qurğuların yerləşdirilməsinə qanunvericiliklə nəzərdə tutulmuş hallarda icazə vermək;

3.0.32. yer təkinin istifadəsi ilə əlaqədar aparılan markşeyder işlərinə nəzarət etmək;

3.0.33. qanunvericiliklə müəyyən edilmiş qaydada istehsalat sahələrində istifadə olunan təhlükə potensiallı sənaye avadanlıqlarının təhlükəsizlik norma və qaydalarının tələblərinə uyğun layihələndirilməsinə, istehsalına və əsaslı təmirinə nəzarəti həyata keçirmək;

3.0.34. dağ-mədən qazmalarının, buruq quyularının və faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan yeraltı qurğuların ləğvi və konservasiyası haqqında aktlara razılıq vermək;

3.0.35. təhlükə potensiallı obyektlərin istismara qəbulunda iştirak etmək;

3.0.36. qanunvericiliklə müəyyən edilmiş qaydada qaz ekspertlərinin fəaliyyətinə nəzarət etmək;

3.0.37. qanunvericiliklə müəyyən edilmiş qaydada qaz təhlükəsizliyi ilə bağlı bütün yerləri, binaları və qurğuları yoxlamaq və bu işlə məşğul olan müəssisə və idarələrə metodiki rəhbərliyi həyata keçirmək;

3.0.38. İdarənin səlahiyyətlərinə aid edilmiş məsələlər üzrə normativ texniki aktların və metodik sənədlərin təkmilləşdirilməsini həyata keçirmək, texniki məlumatlar nəşr etmək, elmin və texnikanın nailiyyətlərini əks etdirən informasiya bülletenləri buraxmaq və həmin sənədlərlə ölkədə fəaliyyət göstərən əlaqədar müəssisə və təşkilatları tanış etmək;

3.0.39. arxiv sənədlərinin qeydiyyatını, mühafizəsini, istifadə edilməsini və arxiv fonduna təhvil verilməsini həyata keçirmək;

3.0.40. dövlət sirrinin və məxfilik rejiminin qorunmasını təmin etmək;

3.0.41. İdarənin fəaliyyəti ilə bağlı olan dövlət və statistika hesabatlarının təkmilləşdirilməsi üzrə təklifləri işləyib hazırlamaq və onun müəyyən olunmuş qaydada ümumiləşdirilməsini və təqdim edilməsini təmin etmək;

3.0.42. İdarənin fəaliyyət sahələri üzrə peşə və kadr hazırlığı, kadrların əlavə təhsili üzrə proqram layihələri hazırlamaq və Nazirliyə təqdim etmək, belə proqramların yerinə yetirilməsi

ilə bağlı Nazirliyə təkliflər vermək;

3.0.43. İdarəyə ayrılan büdcə vəsaitlərindən, kreditlərdən, qrantlardan və digər maliyyə vasitələrindən təyinatı üzrə istifadə olunmasını təmin etmək;

3.0.44. İdarənin daxili strukturunun formalaşdırılması ilə bağlı Nazirliyə təkliflər vermək;

3.0.45. İdarənin kadr, maliyyə və təsərrüfat məsələlərinə aid fəaliyyətinin müvafiq normativ hüquqi aktların tələblərinə, Nazirliyin müvafiq təlimatlarına uyğun olmasına nəzarət etmək;

3.0.46. İdarənin səlahiyyətlərinə aid məsələlərlə bağlı şikayət və ərizələrə baxmaq, qanunvericiliyə və Nazirliyin müvafiq təlimatlarına uyğun tədbirlər görmək;

3.0.47. İdarənin fəaliyyət istiqamətlərinə uyğun ona həvalə edilmiş digər vəzifələri yerinə yetirmək.

## 4. İdarənin hüquqları

4.0. İdarə öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

4.0.1. İdarənin səlahiyyətlərinə aid edilmiş məsələlər üzrə texniki təhlükəsizlik və yerin təkinin mühafizəsi tələblərini yoxlamaq məqsədilə mülkiyyət formasından asılı olmayaraq təhlükə potensialı obyektlərə sərbəst daxil olmaq;

4.0.2. təhlükə potensiallı obyektlərdə və dağ-mədən sahələrində baş vermiş qəza və bədbəxt hadisə faktı üzrə texniki təhqiqatın aparılması üçün xüsusi komissiya yaratmaq;

4.0.3. texniki təhlükəsizliklə bağlı aşkar olunmuş pozuntuları aradan qaldırmaq məqsədilə yazılı göstərişlər vermək;

4.0.4. təhlükə potensiallı obyektlərdə tətbiq olunan texniki qurğuların texniki təhlükəsizlik ekspertizasının həyata keçirilməsinin zəruriliyi barədə qərar qəbul etmək;

4.0.5. təhlükə potensiallı obyektlərdə insanların həyatı üçün təhlükə yarandıqda və ya qəza baş verdikdə işçilərin iş yerlərini tərk etməsi barədə qərar vermək, zəruri hallarda işləri dayandırmaq və avadanlığın möhürlənməsini həyata keçirmək;

4.0.6. təhlükə potensiallı obyektlərdə texniki təhlükəsizlik sahəsində norma və qaydalara əməl olunmasına istehsalat nəzarətini təşkil etmək və onun həyata keçirilməsi üçün daxili nəzarətin aparılması səlahiyyəti verilmiş işçilər barədə məlumat tələb etmək;

4.0.7. təhlükə potensiallı obyektlərin və dağ-mədən sahələri mütəxəssislərinin və vəzifəli şəxslərinin təhlükəsizlik tədbirləri üzrə əlavə təhsilə cəlb olunmasını tələb etmək, qanunvericiliklə nəzərdə tutulmuş attestasiyasını keçirmək və müvafiq vəsiqələr vermək;

4.0.8. təhlükə potensiallı obyektlərin və dağ-mədən sahələri mütəxəssislərinin və işçilərinin əməyinin mühafizəsi və təhlükəsizlik texnikası normaları və qaydaları üzrə təhsilini və təlimatlandırılmasını həyata keçirən hüquqi və fiziki şəxslərin tədris metodikalarını razılaşdırmaq;

4.0.9. sənaye sahələrində və təhlükə potensiallı obyektlərdə işlərin təhlükəsiz görülməsinə, partlayış və pirotexnik materialların, partlayış tərkibli məmulatların saxlanmasına, işlədilməsi və uçotuna dair qaydaların və normaların, texniki təhlükəsizlik haqqında qanunvericiliyin pozulmasına, dağ-mədən işlərində yoxlamanın nəticələri barədə qərarların yerinə yetirilməməyinə görə inzibati məsuliyyətə cəlb etmək və ya cinayət məsuliyyətinə cəlb edilməsi barədə materialları müvafiq orqanlara göndərmək;

4.0.10. qanunvericiliklə müəyyən olunmuş hallarda və qaydada təhlükə potensiallı sənaye avadanlıqlarının və obyektlərin layihələndirilməsinə, istehsalına, quraşdırılmasına, sazlanmasına, əsaslı təmirinə və istismarına razılıq vermək, onların şərtləri yerinə yetirilmədikdə müvafiq tədbirlər görmək;

4.0.11. texnoloji nəqliyyat vasitələrinin, habelə, siyahısı Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti tərəfindən müəyyən edilən digər mexaniki nəqliyyat vasitələrinin dövlət qeydiyyatını aparmaq, onlara qeydiyyat şəhadətnaməsi vermək və ildə bir dəfə texniki baxışdan keçirmək;

4.0.12. təhlükə potensiallı obyektlərə maneəsiz baxış keçirmək, onların təhlükəsizliyi barədə materiallarla tanış olmaq və texniki vəziyyətinin təhlükəsizlik bəyannaməsinə uyğunluğunu yoxlamaq;

4.0.13. çayların məcralarında, sututarlarında, onlara bitişik sahələrdə hidrotexniki

qurğuların təhlükəsizliyinə xələl gətirən hüquqi və fiziki şəxslərin təsərrüfat fəaliyyətini məhdudlaşdırmaq və ya dayandırılması üçün qanunvericiliklə nəzərdə tutulmuş tədbirlər görmək;

4.0.14. fəaliyyət istiqamətlərinə uyğun olaraq yer təkindən istifadə ilə əlaqədar texniki təhlükəsizlik tələbləri pozulduqda yerin təkindən istifadə üçün verilmiş hüquqları qanuna müvafiq olaraq dayandırmaq və ya ləğv etmək məqsədilə yer təkindən istifadə hüququ verən aidiyyəti dövlət orqanları ilə birlikdə tədbirlər görmək;

4.0.15. İdarənin səlahiyyətlərinə aid edilmiş məsələlər üzrə mərkəzi icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarından, hüquqi və fiziki şəxslərdən zəruri məlumatlar almaq barədə sorğu vermək və onlardan belə məlumatlan (sənədləri) almaq;

4.0.16. təhlükə potensiallı obyektlərə dair icrası məcburi olan qərarlar qəbul etmək;

4.0.17. İdarənin fəaliyyətinə aid aktual məsələləri müzakirə etmək üçün nümayəndəlik əsasında idarələrarası əlaqələndirmə və məşvərət orqanları yaratmaq və zəruri hallarda onların işinə mütəxəssislər və ekspertlər cəlb etmək;

4.0.18. sərəncamında olan maliyyə vəsaitlərini müəyyən olunmuş qaydada idarə etmək;

4.0.19. İdarənin işçilərinin, onların ailə üzvlərinin sağlamlığının qorunması ilə bağlı kompleks profilaktika, müalicə, sanatoriya-kurort və digər sosial müdafiə tədbirlərinin həyata keçirilməsinə dair Nazirlik qarşısında məsələ qaldırmaq;

4.0.20. kadrların hazırlanması və əlavə təhsili ilə bağlı proqramların həyata keçirilməsində iştirak etmək;

4.0.21. qanunvericiliklə müəyyən olunmuş qaydada qəzet, jurnal, bülleten buraxılmasında, nəşriyyat işinin həyata keçirilməsində, Nazirliyin internet saytının təşkilində iştirak etmək;

4.0.22. İdarənin fəaliyyət istiqamətinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## 5. İdarənin fəaliyyətinin təşkili

5.1. İdarənin işçiləri dövlət qulluqçusu statusuna malikdirlər.

5.2. İdarənin dövlət qulluqçusu olmayan işçilərinin vəzifə maaşları Vahid Tarif Cədvəli üzrə müəyyən edilir.

5.3. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri tərəfindən təsdiq edilən say həddi daxilində İdarənin strukturu və ştat sayı, büdcə vəsaitləri üzrə xərclər smetası və qanunvericiliklə müəyyən edilmiş digər mənbələr üzrə gəlirlər və xərclər smetası Nazirlik tərəfindən təsdiq edilir.

5.4. İdarədə işçilərin vəzifələrə təyin və vəzifələrdən azad edilməsi qanunvericiliyə uyğun olaraq Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar naziri (bundan sonra-nazir) tərəfindən həyata keçirilir.

5.5. İdarənin aparatının və struktur bölmələrinin maliyyələşdirilməsi dövlət büdcəsindən Nazirliyin saxlanılması üçün nəzərdə tutulmuş vəsait hesabına həyata keçirilir.

5.6. İdarənin fəaliyyətinə İdarənin rəisi (bundan sonra - rəis) rəhbərlik edir.

5.7. Rəis nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.

5.8. İdarəyə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsinə və hüquqların həyata keçirilməsinə görə rəis şəxsən məsuliyyət daşıyır.

5.9. Rəisin nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən bir müavini vardır.

5.10. Rəisin müavini rəis tərəfindən ona həvalə edilmiş vəzifələri yerinə yetirir və bunun üçün şəxsən məsuliyyət daşıyırlar.

5.11. Rəis aşağıdakı səlahiyyətlərə malikdir:

5.11.1. İdarənin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.11.2. öz müavininin səlahiyyətini müəyyən edir;

5.11.3. İdarənin işçilərinin qanunvericiliklə nəzərdə tutulmuş həvəsləndirmə və intizam tədbirlərinə cəlb edilməsi üçün Nazirliyə təqdimat verir;

5.11.4. səlahiyyətləri daxilində İdarənin fəaliyyətinə dair əmrlər, sərəncamlar və

göstərişlər verir;

5.11.5. İdarənin maddi-texniki bazasının möhkəmləndirilməsi barədə Nazirliyə təkliflər verir;

5.11.6. səlahiyyətləri daxilində İdarənin fəaliyyət dairəsinə aid məsələlər üzrə beynəlxalq danışıqlarda iştirak edir;

5.11.7. İdarənin struktur bölmələrinin əsasnamələrini hazırlayır və təsdiq olunmaq üçün Nazirliyə təqdim edir;

5.11.8. bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsini təmin edir;

5.11.9. növbəti il üçün İdarənin saxlanılması xərcləri və məbləği barədə Nazirliyə təkliflər hazırlayır;

5.11.10. İdarənin səlahiyyətlərinə aid edilən məsələlərlə bağlı məhkəmədə iddiaçı və cavabdeh qismində Nazirlik tərəfindən verilən səlahiyyətlər daxilində Nazirliyi təmsil edir;

5.11.11. qanunvericiliyə müvafiq olaraq digər səlahiyyətləri həyata keçirir.